# İNSAN-AYSBERQ: HƏYATLA DOLANIŞIQ ARASINDA XXI ƏSRİN AFORİZMLƏRİ



■ Rahid Ulusel

*Üçüncü hissə*

Qüdrətli insanlar faciəni - hadisə kimi yox, tale kimi yaşayırlar.

* * *

Mövcudluğu həyata çevirən tükənməz qüvvə - yalnız iradə.

* * *

Gözəl, yaraşıqlı insanlar üstün cəmiyyətin açıq görünən keyfiyyətləridir.

* * *

Həyat - iki əbədiyyət arasındakı körpüdən bir dəfə ölməzcə keçmək şansı.

* * *

Fundamental paxıl İnsana və onun Taleyinə eyni vaxtda paxıllıq edir.

* * *

İnsan, evinin qapısını örtüb çölə çıxan kimi dünyaya "girir": ancaq bu dünyaların ikisi də bir boydadır.

* * *

Şam olmasın, çıraq olmasın...
Dünya zülmətə qərq olsa da - Dahi alnının işığına yazar!

* * *

Həyat ömrün arxipelaqı deyil, bütöv bir adasıdır.

* * *

İnsan-aysberq: sudakı hissəsi - təbiət, üzdəki hissəsi - sivilizasiya.

* * *

Cahilin məntiqi: anın qədrini bil, ömür necə keçir keçsin.

* * *

Məhəbbətin çevrəsi qəssabın danaya münasibəti qədər darala bilər.

* * *

Hər xoruzlanan banlamaq peşəsinə yiyələnə bilmir.

* * *

Küçə - ensiklopediyadır. İnsan ensiklopediyası.

* * *

Bu malikanədə hər şey var - İnsandan başqa.

* * *

Rəqabətin mühərriki - qibtə etdiyini yıxmaq yox, ötmək.

* * *

Yanlışlıqları darasan, ölü həqiqətlər bit şəklində töküləcək.

* * *

Meqapolislərdə bir-birinin əl-ayağına dolaşan milyonlarla robinzon kruzolar yaşayır.

* * *

Adam var - termos kimi sınıb tökülüb içinə: xırçıltısı eşidilir.

* * *

Hər insanın içində bir dahinin şineli didilir.

* * *

Adamların çoxu qocalmır, köhnəlir.

* * *

Təhlükəli yuxu - yatan yaddaş.

* * *

Şöhrət - dördayaqlıların ən bərk qaçanıdır.

* * *

Gəl, dost olaq! Dostlarımızın düşmənləri, düşmənlərimizin dostları arasında...

* * *

Səhər açılanda bir qarışqanın dalınca düşüb getsən, günün sonunda görərsən ki, həyat necə mənalıdır.

* * *

Xəyalların ən gözəli - həyatda olmadığın zamanları düşünmək.

* * *

Jan de Labryuyer deyirdi: "Həyat onu hiss edənlər üçün - faciə, dərk edənlər üçün - komediyadır." Hiss və dərk etməyənlər üçünsə yalnız - Əyləncə.

* * *

Hadisələrin relfeyində diyirləndikcə, mahiyyətin yuvasından uzaqlaşırsan.

* * *

Hər gün insanın həyatında nəyinsə Başlanğıcı, nəyinsə Sonu olmalıdır.

* * *

Biz hər il 365 gün xoşbəxt oluruq: hər gün oyanıb işıqlı dünyanı görməklə.

* * *

Güləndə bədən çimir, çiməndə bədən gülür.

* * *

Pulu sevirlər, amma onunla dostluq etmirlər.

* * *

Ölməmək - hələ yaşamaq demək deyil.

* * *

Diriliyində qazandığı reputasiya ölümündən sonra qəlp çıxdı.

* * *

Gic-gic düşünmək elə gic-gic danışmağa taydır.

* * *

Bir çox qəzalar əyləcsiz dillər tərəfindən törədilir.

* * *

Pulun üstündəki böyük adamı klonlaşdırırlar.

* * *

Yaddaşında xatirələrindən başqa bir şeyi olmayan adamlar bütün pullarını heç nəyə xərcləməyib yalnız seyfdə saxlayan varlılar kimidir.

* * *

Yaşıdlar bərabər yaşlanır, lakin fərqli qocalırlar.

* * *

Həyatının sonunadək insanın daşımağa məhkum olduğu getdikcə ağırlaşan yeganə yükü - onun yaddaşı.

* * *

Elə nadir əyar-insanlar var ki, onlarla ünsiyyətdə olarkən özünü daha yaxşı tanıyırsan.

* * *

Həyatın mənası: onsuz yaşamağın mümkün olmadığı özünün ən yüksək, həm də faciəvi təsdiqini intiharda tapır.

* * *

Yaşamaq üçün ağıl, yaratmaq üçün zəka, dolanmaq üçün zəhmət lazımdır, baş girləyib gün keçirmək üçünsə - heç biri.

* * *



İşıqlandırdıqlarınızda görünür, zülmətləndirdiklərinizdə itirsiniz.

* * *

İnsanlar öz xasiyyətlərinin yüngül və dayaz tərəflərini temperamentlərinə uyğun olaraq bəzən sıza-sıza, bəzən də daşar-daşar təzahür etdirirlər.

* * *

Özünü reallaşdıra bilməyən kinli adamların toplanıb tuluqlanmış aqressiyası ən gözlənilməz hallarda püskürə bilər.

* * *

Reputasiyanın qazanılmasından sonra onun mozaikası, itirilməsindən sonra yamanması başlayır.

* * *

Arqumenti həmişə udan yox, uduzan axtarır.

* * *

İnsanlar çox zaman təsəvvür etdikləri potensial imkanları ilə başqalarının real imkanlarını tutuşdurub, özlərinin şəksiz üstün olduqlarını zənn edirlər.

* * *

Axmağın üstünlüyü: onun repertuarı həmişə ağıllınkından zəngin olur.

* * *

Artıqlıq - çatışmazlığın yuxarı həddi.

* * *

Zarafat - rəqibin düşmən olmasına potensial bəhanədir.

* * *

Həyatı təlimatlarla yaşayan adamlar daha çox azır, dolaşığa düşürlər.

* * *

Əsl dərs qurtarandan sonra başlayır.

* * *

Uzaqgörənlərlə yaxıngörənlər həyat yolunda həmişə toqquşur. Sonra nəzakətlə bir-birinə yol verib ötüşürlər.

* * *

İnsan doğulduğu yurdun ona doğma olan beşik müqəddəsliyini, heç zaman kəsilməyəcək isti nəfəsini bütün dünyaya daşımalıdır.

* * *

Ağıllı adamın uzaqgörənliyi ona palıd möhkəmliyi və uzunömürlülüyü verir.

* * *

İnsanlığın getdiyi böyük yola qoşulmaq üçün yolsuzlardan aralanmalı.

* * *

Yonulmayan taxta-adamdan ancaq şlaqbaum düzəltmək olar.

* * *

İtirilmiş başı çox zaman başqaları - özü də ona ehtiyacı olmayanlar tapır.

* * *

Gərək heç zaman qorxmayasan: üstünə səndən balaca adamlar gəlsə də.

* * *

İnsan və Vicdan sıldırımda görüşür.

* * *

Məsuliyyətli adam qeyri-ciddi, ciddi adam məsuliyyətsiz ola bilməz.

* * *

Tale - insanın alnına yox, onun hərəkət edən ayağına, güc verən dizinə, iş görən əlinə, yol tapan gözünə, yarıb keçən sinəsinə, yanılmayan qəlbinə, həyat qanunlarını arayıb öz səmtini açan beyninə yazılıb!

* * *

İnsan bəlli ömür hüdudlarından yalnız qanadlanıb uçmaqla çıxa bilər.

* * *

Sənətkar-fotoqrafın hafizəsində də dürlü insanların daim genişlənən canlı foto-albomu var.

* * *

İnsanlar var ki, onların sifətinin lövhəsi suçlarını yazmağa bəs eləməz.

* * *

Yoxsulların çatışmayan cəhəti - cındırları arasından özlərinin görünməməsi.

* * *

Milyonlarla insanın şəxsiyyətinin inkar olunduğu zəmində yetişir - şəxsiyyətə pərəstiş.

* * *

Həyat təcrübəsi: bunu özün yaradırsan.

* * *

İnsana səmti başqaları üçün olan yolu göstərmək, onu azdırmaq deməkdir.

* * *

Hər şeyin üzərindən sürətlə sürüşüb keçərkən, insan yoxsuşlanmır, genişlənir.

* * *

Dilini opuntia kaktusu kimi çölə atanların Eynşteyn yox, kloun olmaq şansı var.

* * *

Danışın, danışın: kim olduğunuzu öz dilinizdən eşidək.

* * *

Özünütəsdiq özgəniinkarla qazanılmır.

* * *

Cəmiyyətin dişləri tökülür - çürümüş adamlarla.

* * *

Ölmək və yox olmaq: itirilmiş həyatın aqibəti ikincidir.

* * *

Həm sovet, həm də müstəqillik çağında yaşayan adamların çoxu, həqiqətən, yaman dəyişib - olub kentavr.

* * *

Eqo-çəkmə elə zənn edir ki, corab ayaq üçün yox, onun üçündür.

* * *

İnsana onun özünə heç zaman vermədiyi suallardan verin.

* * *

Müdrikləşmədən dünyadan getmək - həyatın yarımçıq qalması deməkdir.

* * *

Cəmiyyət - Həyatı və Əyləncəni ayırd edə bilməmək səviyyəsinə qədər sıyıqlaşa bilər.

* * *

Ölərkən - meyit olmaq istəmirsənsə, diri ikən - insan ol!

* * *

Adamlar xırdalaşdıqca, düşdükləri torun gözü də balacalaşır.

* * *

İki dost varsa, deməli, dünyada düşmənliyin iki yolu kəsilib.

* * *

Çoxları doğum və ölüm arasını həyat kimi yox, interval kimi yaşayır.

* * *

Şöhrətinin başına çaparaq fırlanan adamlar axırı gicəlib yerə yıxılırlar.

* * *

Güzəştə getdiklərimizin çoxunun - itirdiklərimiz olduğundan xəbərsizik.